**Azərbaycan Respublikasının Prezidenti yanında**
**ELMİN İNKİŞAFI FONDU**

**Tədbirlərin təşkili və keçirilməsi üzrə iş və xidmətlərin satınalınması məqsədi ilə**

AÇIQ TENDER ELAN EDİR

Tender 3 lot üzrə keçirilir:

Lot-1. Gənc alimlərin "Neft və geoekologiya" adlı 1-ci beynəlxalq Məktəb-seminarının keçirilməsi üçün iş və xidmətlərin satınalınması;
Lot-2. Gənc alim və mütəxəssislərin "Davamlı sağlamlıq turizminin ölkənin iqtisadiyyatında rolu" adlı beynəlxalq konfransının keçirilməsi üçün iş və xidmətlərin satınalınması;
Lot-3. "Kosmik hava və qlobal naviqasiya peyk sistemləri" adlı beynəlxalq məktəbin keçirilməsi üçün iş və xidmətlərin satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən lotlar üzrə öz tender təkliflərini yazılı surətdə, möhürlənmiş, imzalanmış ikiqat bağlamada təqdim etsinlər.
Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, ən qısa müddət ərzində çatdırılma, mallara maksimum zəmanət, analoji işlərdə təcrübəsi.
Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lotlar üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Səfərov küçəsi, 27, 9-cu mərtəbə (Tender Komissiyası, telefon 489-08-94, səlahiyyətli şəxs: Ədilə Babayeva) ala bilərlər.
İştirak haqqı: 1-ci lot üzrə - 25 manat; 2-ci lot üzrə - 25 manat; 3-cü lot üzrə isə - 25 manatdır.
İddiaçılar tenderdə iştirak haqqını bu hesaba köçürməlidirlər:
Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu
VÖEN: 1701102761
Dövlət Xəzinədarlığı Agentliyi
Bankın VÖEN-i: 1401555071
H/h: AZ29CTRE00000000000005428301
m/h: AZ41NABZ01360100000000003944
Bankın kodu: 210005
S.W.I.F.T. CTREAZ22
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə) (iştirak ediləcək satınalma predmeti dəqiq göstərilməklə);
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, iddiaçının tam rəsmi adı və rekvizitləri;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;
- iki nüsxə (əsli və surəti) tender təklifi (tender təklifi zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
- vergilərə və digər icbarı ödənişlərə dair yerinə yetiriləsi və vaxtı keçmiş öhdəliklərinin olmaması barədə müvafiq dövlət orqanından arayış;
- iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;
- iddiaçının işləri yerinə yetirmək üçün təcrübəsi və potensial imkanları, tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməli və notarial qaydada təsdiq olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 06 avqust 2018-ci il saat 11.00-a qədər, tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 14 avqust 2018-ci il saat 17.00-a qədər Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fonduna (Bakı şəhəri, Y.Səfərov küçəsi-27, 9-cu mərtəbə) təqdim etməlidirlər.
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.
İddiaçıların təklifləri 15 avqust 2018-ci il tarixində saat 10.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender komissiyası

* Elan 06 iyul 2018-ci il tarixində "Xalq Qəzeti"-ndə dərc olunmuşdur, №147 (28823), səh.6

---

Lot 1.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinə həsr edilmiş
**1-ci Beynəlxalq məktəb-seminar "Neft və geoekologiya"**

**11-15 noyabr 2018-ci il**
(11 noyabr – gəliş günü, 12-13-14 noyabr – işçi günlər, 15 noyabr gediş günü omaqla)

| S.s. | İş və ya xidmətin adı | Ölçü vahidi | Miqdarı | Vahidinin qiyməti | Məbləğ, manatla |
|---|---|---|---|---|---|
| 1 | Xarici dəvətli iştirakçıların Bakı şəhərində mehmanxanada yaşayışı (bir nəfərlik 20 otaq olmaqla x 4 gecə) | gecə | 80 | | |
| 2 | Nəqliyyat xidməti – çöl işləri üçün – Bakı – Qobustan – Daşgil – geriyə (12 saatdan artıq olmamaq şərti ilə), ən azı 15-16 nəfərlik 2 yüksək keçidli (4x4) mikroavtobus | gün | 1 | | |
| 3 | Çöl işləri zamanı – ekspress - nahar - 30 nəfər üçün | nəfər | 30 | | |
| 4 | Dəftərxana xərcləri - İştirakçı qovluğu (qovluq, bloknot, qələm, adlı yaxalıq – dizayn və çapla, tədbirin proqram və tezislər kitabçası - A5 formatlı, 55 vərəqli rəngli) | dəst | 70 | | |
| 5 | Rolap dizaynı, çapı və dəmir qurğusu ilə (ölçüləri: 2.05 x 0.85 m) | ədəd | 2 | | |
| 6 | Yemək xərcləri – Çay - qəhvə fasiləsi - 40 nəfər üçün x 2 gün (gündə 2 dəfə olmaqla) | nəfər | 160 | | |
| 7 | Yemək xərcləri – Nahar | nəfər | 80 | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | yeməyi - 40 nəfər üçün x 2 gün | | | | |
| 8 | Yemək xərcləri – Şam yeməyi - 20 nəfər xarici iştirakçı üçün x 2 gün | nəfər | 40 | | |
| 9 | Yemək xərcləri - Ziyafət - 40 nəfər üçün | nəfər | 40 | | |
| 10 | İclas zalının icarəsi | gün | 2 | | |
| 11 | Elektron avadanlıqların (mikrofon, ekran, proyektor, noutbuk və s.) icarəsi | gün | 2 | | |
| 12 | Xarici iştirakçılar üçün Bakı şəhəri üzrə ekskursiya - 20 nəfərlik, 2-3 saat (biletlər və nəqliyyat vasitəsi daxil olmaqla) | gün | 1 | | |
| 13 | Posterlər üçün stendlər (1 gün) | ədəd | 10 | | |
| 14 | Tədbirdə iştirak haqqında sertifikatların hazırlanması (dizayn və çap ilə birlikdə) | ədəd | 50 | | |

Lot 2.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinə həsr edilmiş
**Gənc Alim və Mütəxəssislərin beynəlxalq konfransı**
**“Davamlı sağlamlıq turizminin ölkənin iqtisadiyyatında rolu”**

**28 oktyabr – 01 noyabr 2018-ci il**
(28 oktyabr – gəliş günü, 29-30-31 oktyabr – işçi günlər, 01 noyabr gediş günü omaqla)

| S.s. | İş və ya xidmətin adı | Ölçü vahidi | Miqdarı | Vahidinin qiyməti | Məbləğ, manatla |
|---|---|---|---|---|---|
| 1 | Xarici dəvətli iştirakçılar üçün ekonom sinifli aviabiletlərin alınması<br>- Tel-Əviv-Bakı-Tel-Əviv<br>- Moskva-Bakı-Moskva<br>- Tehran-Bakı-Tehran<br>- Tbilisi-Bakı-Tbilisi<br>- Kiyev-Bakı-Kiyev<br>- Minsk-Bakı-Minsk<br>- İstanbul-Bakı-İstanbul<br>- Antalya-Bakı-Antalya | nəfər | 8 | | |
| 2 | Xarici dəvətli iştirakçıların Heydər Əliyev beynəlxalq aeroportunda qarşılanması və yola salınması üzrə nəqliyyat xidməti – 8 nəfər x 2 dəfə | nəfər | 16 | | |
| 3 | Xarici dəvətli iştirakçıların Bakı şəhərində mehmanxanada yaşayışı (bir nəfərlik 8 otaq olmaqla x 4 gecə) | gecə | 32 | | |
| 4 | Nəqliyyat xidməti – praktiki işlər üçün – Bakı – Naftalan – geriyə, ən azı 16 nəfərlik mikroavtobus | gün | 1 | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 5 | Praktiki işlər zamanı nahar - 16 nəfər üçün | nəfər | 16 | | |
| 6 | Dəftərxana xərcləri - İştirakçı qovluğu (qovluq, bloknot, qələm, adlı yaxalıq – dizayn və çapla, tədbirin proqram və tezislər kitabçası - A5 formatlı, 15 vərəqli rəngli) | dəst | 60 | | |
| 7 | Rolap - dizaynı, çapı və dəmir qurğusu ilə (ölçüləri: 2.05 x 0.85 m) | ədəd | 1 | | |
| 8 | Banner (ölçüsü: 2.0 x 1.80 m) – dizaynı, çapı və çərçivə ilə | ədəd | 1 | | |
| 9 | Yemək xərcləri – Çay - qəhvə fasiləsi - 50 nəfər üçün x 2 gün (gündə 2 dəfə olmaqla) | nəfər | 200 | | |
| 10 | Yemək xərcləri – Nahar yeməyi - 16 nəfər üçün x 2 gün | nəfər | 32 | | |
| 11 | Yemək xərcləri – Şam yeməyi - 8 nəfər xarici iştirakçı üçün x 2 gün | nəfər | 16 | | |
| 12 | Yemək xərcləri - Ziyafət - 16 nəfər üçün | nəfər | 16 | | |
| 13 | İclas zalının icarəsi | gün | 2 | | |
| 14 | Elektron avadanlıqlarin (mikrofon, ekran, proyektor, noutbuk və s.) icarəsi | gün | 2 | | |
| 15 | Tərcümə xidməti: Azərbaycan-ingilis və ingilis-Azərbaycan , 40 nəfər üçün | gün | 2 | | |
| 16 | Tərcümə avadanlıqlarının icarəsi – 40 nəfərlik | gün | 2 | | |
| 17 | Xarici iştirakçılar üçün Bakı şəhəri üzrə ekskursiya - 8 nəfərlik, 2-3 saat (biletlər və nəqliyyat vasitəsi daxil olmaqla) | gün | 1 | | |
| 18 | Tədbirdə iştirak haqqında sertifikat hazırlanması (dizayn və çap ilə birlikdə) | ədəd | 40 | | |

Lot 3.

**Beynəlxalq məktəb-seminar “Kosmik Hava və Qlobal Naviqasiya Peyk Sistemləri”**
**07-13 oktyabr 2018-ci il**
(07 oktyabr – gəliş günü, 8-12 oktyabr – işçi günlər, 13 oktyabr gediş günü omaqla)

| **S.s.** | **İş və ya xidmətin adı** | **Ölçü vahidi** | **Miqdarı** | **Vahidinin qiyməti** | **Məbləğ, manatla** |
|---|---|---|---|---|---|
| 1 | Xarici dəvətli iştirakçıların Bakı şəhərində mehmanxanada yaşayışı (bir nəfərlik 20 otaq olmaqla x6 gecə) | gecə | 120 | | |
| 2 | Nəqliyyat xidməti – praktiki işlər, tanışlıq və səyyar elmi sessiya üçün – Bakı – “AzərKosmos” | gün | 1 | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ASC (Bakı-Şamaxı yolunun 38-ci km-i) – Şamaxı Astrofizika Rəsədxanası (Şamaxı rayonu, Y.Məmmədəliyev qəsəbəsi) – geriyə (12 saatdan artıq olmamaq şərti ilə), ən azı 20 nəfərlik 2 mikroavtobus və ya 40 nəfərlik 1 avtobus | | | | |
| 3 | Dəftərxana xərcləri - İştirakçı qovluğu (qovluq, bloknot, qələm, adlı yaxalıq – dizayn və çapla, tədbirin proqram kitabçası - A5 formatlı, 10 vərəqli rəngli) | dəst | 60 | | |
| 4 | Banner (ölçüsü: 2.0 x 3.0 m) – dizaynı, çapı və çərçivə ilə | ədəd | 1 | | |
| 5 | Yemək xərcləri – Çay - qəhvə fasiləsi - 50 nəfər üçün x 4 gün (gündə 2 dəfə olmaqla) | nəfər | 400 | | |
| 6 | Yemək xərcləri – Nahar yeməyi - 50 nəfər üçün x 4 gün | nəfər | 200 | | |
| 7 | Yemək xərcləri - Ziyafət - 50 nəfər üçün | nəfər | 50 | | |
| 8 | Tədbirdə iştirak haqqında sertifikat (dizayn və çap ilə birlikdə) | ədəd | 40 | | |